# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyaları ənənə halı alıb

## Tur-aksiyanın növbəti iştirakçıları Qəbələdə



***Prezident İlham Əliyevin tövsiyəsinə əsasən "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiyanın bu ilin payızında reallaşan ikinci mərhələsi çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan 9 rayonun məktəblilərindən ibarət qruplar noyabrın 18-də günorta saatlarında Qəbələ şəhərinə gəliblər.***



Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir, Samux, Neftçala, Salyan və Hacıqabul rayonlarının məktəbliləri "Karvansaray" otelinin qarşısında qarşılanıblar.

Rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova məktəblilərə qədim Qəbələnin tarixi, mədəniyyəti, iqtisadiyyatı və turizm potensialı barədə məlumat verib.

"Karvansaray" və "Qafqaz Sport" otellərində yerləşən məktəblilər nahardan sonra Qəbələ rayonu ilə tanışlığa başlayıblar. Məktəblilər əvvəlcə Qəbələ şəhərindəki Zərifə Əliyeva prospektinin ərazisində ağacəkmə aksiyasında iştirak ediblər.

Tur-aksiya iştirakçılarının Qəbələnin görməli yerləri ilə ilk tanışlığı Yengicə kəndindəki zooparka və Nohur gölünə səyahət ilə başlayıb.

**"Qəbələ"**

## Tur-aksiya iştirakçıları Qəbələ ilə tanış olublar

***"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsində məktəblilər Qəbələ rayonunun istehsal müəssisələri, tarixi məkanları və görməli yerləri ilə tanış olublar.***



Tur-aksiya iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzini ziyarət edib, ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Sonra məktəblilər "Gilan Qida Şəhərciyi"nə gəliblər. Onlar şəhərcikdəki istehsal prosesləri ilə tanış olublar.

"Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi, Heydər Əliyev Konqres Mərkəzi və "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi ilə tanışlıq da məktəblilərin ürəyincə olub.

Tur-aksiya iştirakçıları günün ikinci yarısında Nic qəsəbəsindəki "Çotari" alban-udi kilsəsinə səfər edib, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğu, eləcə də Qəbələ Arxeoloji Mərkəzində maddi-mədəniyyət nümunələri ilə tanış olublar.

Məktəblilər axşam saatlarında təşkil olunan intellektual bilik yarışlarında öz bacarıqlarını nümayiş etdiriblər.

**"Qəbələ"**

## Qəbələdən xoş təəssüratla ayrılıblar

***Ölkəmizi tanıyaq" devizi altında Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir, Samux, Neftçala, Salyan və Hacıqabul məktəblilərinə rayonumuzla tanışlıq zamanı Azərbaycanın ən qədim bölgələrindən olan Qəbələnin zəngin tarixi haqqında məlumat verilib.***

Aksiya iştirakçılarına 900 il Qafqaz Albaniyasının paytaxtı olan və bu gün sürətlə inkişaf edərək Azərbaycanın gözəl şəhərlərindən birinə çevrilən Qəbələnin sosial-iqtisadi və mədəni həyatında əldə edilən uğurlar, rayonun coğrafiyası, etnoqrafiyası, əhalisinin məşğuliyyəti haqqında ətraflı bilgilər çatdırılıb.






Aksiya çərçivəsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları keçirilib, qaliblərə xatirə hədiyyələri verilib.

Tur-aksiyada iştirak edən məktəblilər Qəbələdən xoş təəssüratlarla ayrılıblar.

**"Qəbələ"**

# Dövlət bayrağı Azərbaycanın suverenliyinin rəmzidir

## Dövlət Bayrağı Gününə həsr edilmiş yürüş

Qəbələ Rayon İcra Hakimiyyəti və gənclər və idman idarəsinin təşkilatçılığı ilə 9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə şəhərimizdə bayraq yürüşü keçirilmişdir.



Ümummilli lider Heydər Əliyevin abidəsindən başlayan və 500-dək yeniyetmə və gəncin qatıldığı yürüş Şəhidlər Xiyabanı Kompleksinədək davam etmişdir.

Milli atributlarımızın, xüsusilə bayrağımızın təbliği, gənclər arasında vətənpərvərlik hisslərinin və milli-mənəvi dəyərlərimizin aşılanması məqsədilə keçirilən yürüşün iştirakçıları tərəfindən Şəhidlər Xiyabanın önündə şəhidlərimizin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Tədbirdə rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov yürüş iştirakçılarını bayram münasibətilə təbrik etmiş, üçrəngli bayrağımızın Azərbaycanın varlığını və gücünü dünyaya tanıtdığını bildirmişdir.

Daha sonra rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, rayon İcra hakimiyyətinin baş məsləhətçisi Azər Şirinov, dövlət peşə təhsili mərkəzinin direktoru Namiq Muradov, turizm və otelçilik üzrə peşə tədrisi mərkəzinin direktoru Eyvaz Kazımov və başqaları çıxış edərək bu səpkidən olan tədbirlərin gənclərdə dövlət rəmzlərinə, bayrağımıza sevgi və ehtiram hissləri aşıladığını və bu sevginin daha da artmasına töhfə verdiyini söyləmişlər.

**Mübariz AĞAYEV,**
**Gİ-nin əməkdaşı.**

## Geniş tədbirlər keçirilib

Qəbələ rayonunun bütün ümumtəhsil məktəblərində Dövlət Bayrağı Gününə həsr olunmuş geniş tədbirlər keçirilib.

Yekun tədbir olaraq noyabrın 7-də şəhər 5 nömrəli tam orta məktəbdə "dəyirmi masa" təşkil olunub.

Azərbaycan Respublikası Dövlət Himninin səslənməsi ilə başlayan tədbirdə iştirak edən təhsil şöbəsinin müdiri Arifə Bayramova rayonun bütün təhsil işçilərini bu əlamətdar gün münasibəti ilə təbrik edib, onlara daha böyük uğurlar arzulayıb.

Sonra məktəbin tarix müəllimi Tahir Məsimov Dövlət Bayrağı Gününə dair geniş məruzə edib.

Yekunda tədbir iştirakçılarına şagirdlərin hazırladığı ədəbi-bədii kompozisiya təqdim edilib.

**Rasim BAYRAMOV,**
**təhsil şöbəsinin işçisi.**

## Bayrağımıza məhəbbət ifadə olundu

Dövlət Bayrağı Günü şəhid Pərviz Osmanov adına şəhər 2 nömrəli tam orta məktəbində təntənə ilə qeyd olunub. Tədbir Azərbaycan Dövlət himninin səslənməsi ilə başlayıb. Təcrübəli müəllimə Sona Orucovanın rəhbərlik etdiyi IVc sinif şagirdləri Vətənə, Dövlət Bayrağımıza, şəhidlərə həsr olunmuş kompozisiya nümayiş etdiriblər. Onların ifa etdiyi "bayraq rəqsi" də maraqla qarşılanıb.

Məktəbin direktoru Təranə Səlimova tədbirin təşkilatçısı Sona Orucovaya və şagirdlərə təşəkkür edib.

**Aytəkin ABUDOVA,**
**məktəbin müəllimi.**